# Sərhədlərin delimitasiyası Azərbaycanın qətiyyətinin nümayişidir

**"Mayın 15-də Azərbaycanla Ermənistan arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə komissiyaların doqquzuncu görüşü keçirilib. Bu görüş Qazax rayonunun qeyri-anklav dörd kəndinin Azərbaycana təhvil verilməsi ilə başlanan delimitasiya və demarkasiya prosesinin uğurlu davamıdır. Qısa müddət ərzində razılaşmanın əldə olunması və sərhəd dirəklərinin quraşdırılması da onu göstərir ki, Ermənistan Azərbaycanın çağırışlarına artıq reaksiya verir".**



Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu deyib. Deputat bildirib ki, sərhədlərin müəyyənləşdirilməsi ilə əlaqədar dövlət komissiyası ilk dəfə olaraq Azərbaycanın təşəbbüsü ilə bizim ölkədə yaradılıb: "Bu onu göstərir ki, Azərbaycan regionda sülhün etibarlı əsaslarını yaratmaq istəyir və bu istiqamətdə təkcə mövqe sərgiləməklə kifayətlənmir, eyni zamanda praktiki addımlar da atır. Bir müddət sonra Azərbaycanın ardınca Ermənistanın da eyni funksiyalı komissiya yaratmasını bu ölkənin bizim sülh çağırışlarımıza cavabı kimi qiymətləndirmək olar. Bu, yaxın gələcəkdə Azərbaycanın regionda sülhün və əməkdaşlığın bərqərar olması üçün etdiyi təşəbbüslərinin hər birinin nəticə verəcəyinə ümid yaradır".

Deputatın sözlərinə görə, sərhədlərin delimitasiyası istiqamətində müzakirələrin məhz SSRİ dövrünün müvafiq kartoqrafik xəritələrinə uyğun olaraq aparılması və ortaq məxrəcə gəlinməsi bütövlükdə Cənubi Qafqaz regionunda sülh üçün əsaslı zəmin yaradır. Eyni zamanda bu, Azərbaycanın haqlı mövqelərinin qələbə çaldığını göstərir. Ümumiyyətlə, bu gün sərhədlərin delimitasiyası və demarkasiyası üzrə əldə edilən nailiyyətlər Azərbaycan tərəfindən atılmış kompleks addımların uğurlu nəticəsidir.

"Prezident İlham Əliyev yanvarın 10-da yerli televiziya kanallarına müsahibə verən zaman bildirmişdi ki, Ermənistan tərəfi Azərbaycanın çağırışlarına düzgün reaksiya nümayiş etdirməlidir. Heç bir müzakirə aparılmadan qeyri-anklav kəndlərimiz Azərbaycana təhvil verilməlidir. Paşinyan da Tavuşa səfəri zamanı yerli əhaliyə müraciətində həmin kəndlər qaytarılmayacağı təqdirdə müharibənin qaçılmaz olacağını demişdi. Hələ o vaxtdan Ermənistan rəhbərliyində və cəmiyyətində Azərbaycanın çağırışlarına düzgün reaksiya nümayiş etdirməməyin nəticəsinin necə olacağı haqqında artıq aydın təsəvvür formalaşmışdı", - deyə müsahibimiz əlavə eidb.

Elşad Mirbəşiroğlu vurğulayıb ki, Ermənistanın sərhədlərin delimitasiyası və demarkasiyası ilə bağlı bu gün sərgilədiyi müsbət mövqe Azərbaycanın həyata keçirdiyi müvafiq uğurlu strategiyanın məntiqi nəticəsidir: "Rəsmi İrəvan məhz kompleks addımlarımız sayəsində müəyyən mövqe sərgiləməyə məcbur oldu. Ona görə də Azərbaycan-Ermənistan sərhədinin delimitasiyası məsələsi intensiv görüşlərdə müzakirə olunur. Gedişat göstərir ki, Ermənistan regionda dayanıqlı sülh üçün təsirli amil rolunda çıxış edən Azərbaycanın təklif və təşəbbüslərini qiymətləndirmək məcburiyyətindədir".

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 17 may, № 102.- S.9.